Orucoğlu Z. Mərdlik və hünər örnəyi // Respublika. - 2023. - 20 may. - № 105. - S. 8.

Kamran Əkbər oğlu Vəlizadənin də qismətinə Vətən yolunda şəhidlik şərəfi nəsib oldu. Ömrünün 24-
cü baharında bu dünyadan köçməklə, gələcək nəsillər üçün örnək olacaq bir tarix y azıb qoydu.

Lənkəran rayonu, Nərimanabad kəndində hamı Əkbər kişini halal zəhmətdən doym ayan, xeyirxah, ürəyitəmiz, səmimi insan kimi tanıyır, xətrini əziz tutur. Kamran b elə bir halal ailə ocağında boy atdığına görə həyatı dərk edən gündən bütün varlığı ilə Vətəninə, xalqına bağlanır. 2014-
cü ildə orta məktəbi başa vurur, Neft Akademiyasının energetika fakültəsinə qəbul olur. Ülvi, humanist keyfiyyətlərə malik olan Kamran ali məktəbi yüksək səviyyəd ə bitirir. Vətənini azad, xalqını xoşbəxt görmək istəyi onun qarşısında yeni yollar a çır. 2018-
ci ildə hərbi xidmətə gedir, Daşkəsənin Xoşbulaq kəndində layiqli bir oğul olaraq c anından artıq sevdiyi Azərbaycana əsgəri borcunu şərəflə verir.

Hərbi xidmətdən evinə qayıdan Kamran sonra müxtəlif işlərdə çalışır. Bitib-tükənməyən arzuları onu el-
obada yalnız yaxşı işlər görməyə sövq edir. Elin sevimli oğlu erməni daşnakların tə cavüzünə məruz qalan Qarabağın taleyini unutmur. Vətənə olan sevgisi Kamranı h əmişə mübarizə meydanına, yağıya qarşı döyüşə səsləyir. Odur ki, İkinci Qarabağ müharibəsi başlayan kimi, o, Vətənin harayına birinci gedir.
"Vətən uğrunda ölmək şərəfdir", - deyib özünü odun-
alovun içinə atır. Özü öndə olmaqla onunla çiyin-
çiyinə vuruşan döyüş yoldaşlarını irəli aparmaq üçün belə deyir:
"Biz mütləq qələbə qazanmalıyıq. Vətəni qanımızla, canımızla yaşatmaq bizim bor cumuzdur".

Ağır döyüşlərdə güllə yağışı Kamrana sel kimi yağsa da, heç nədən qorxmur, daim irəli gedir. Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşur. Girdiyi hər savaşda çoxlu sayda erməni dığasını məhv edir.
23 oktyabrda şəhidlik zirvəsinə ucalır.

Şəhid Kamran Vəlizadə dövlət tərəfindən "Vətən uğrunda", Cəbrayılın, Qubadlının azadlığına görə, "Cəsur döyüşçü" medallarına layiq görülüb.